2021-2022-ci tədris ilində "Rəqəmsal bacarıqlar" layihəsi ölkəmizin 16 şəhər və rayonunu əhatə edəcək. Layihəyə Bakı, Sumqayıt, Gəncə, Şəki, Şirvan, Şamaxı, Lənkəran, Biləsuvar, Mingəçevir, Xaçmaz, Yevlax, Sabirabad, Salyan, Şəmkir, Göyçay, Şabran şəhər və rayonları üzrə 250 məktəbdə tədris alan 190 min şagirdin cəlb olunacağı gözlənilir. Həmçinin layihə üzrə tədris prosesində 1500-dən çox müəllim heyəti iştirak edəcək.

Qeyd edək ki, 2017-2018-ci tədris ilindən etibarən təhsilalanların İKT bacarıqlarına dərindən yiyələnməsi, onların informasiya məkanında məqsədyönlü fəaliyyətinə nail olunması, rəqabətqabiliyyətli və məntiqi düşüncə tərzinə malik şəxslər kimi formalaşmasını təmin etmək məqsədilə ümumtəhsil məktəblərində "Rəqəmsal bacarıqlar" layihəsinin tətbiqinə başlanılıb.